REV 1.0

SAF 2023

STEAM AZERBAIJAN FESTIVAL



# INNOVATIVE EXHIBITION

## QAYDALAR

BAKI 2023

# MÜNDƏRİCAT

1. Giriş ........ 3
2. İştirak şərtləri ........ 3
3. Müraciət üsulu ........ 3
4. Seçim mərhələsi ........ 4
5. Final mərhələsi ........ 4

# 1. Giriş

1.1. XXI əsr təhsilalanları təhsildə tətbiq olunan yeni yanaşmalar nəticəsində müasir cəmiyyətin müxtəlif sahələrinin inkişafı üçün zəruri olan elm sahələri istiqamətində bilik və bacarıqlar əldə edirlər. Məhz bunun nəticəsi olaraq real həyati problemlərin həlli istiqamətində bilik və bacarıqlarını tətbiq edərək cəmiyyətə öz töhfələrini verə biləcək gənc nəsil formalaşmağa başlamışdır.

1.2. SAF 2023-də "İnnovativ layihələr sərgisi"nin təşkilində əsas məqsəd müxtəlif yaş qrupundan olan istedadlı təhsilalanların üzə çıxarılması, həmçinin potensialın daha da inkişaf etdirilməsi üçün şəraitin yaradılmasıdır.

# 2. İştirak şərtləri

2.1. "İnnovativ layihələr sərgisi" ümumi orta, tam orta, ilk peşə, texniki peşə, yüksək peşə, orta ixtisas, həmçinin ali təhsil səviyyələri üzrə qrup şəklində iştirak üçün nəzərdə tutulmuşdur.

2.2. Hər komandanın tərkibində 1 rəhbər, 2 və ya 3 komanda üzvü olmalıdır.

2.3. Layihə məzmunu iki istiqamət üzrə - ""**Təbii fəlakətlərdə smart həllər**" və "**Tibb və innovativ texnologiya**" olaraq müəyyənləşdirlmişdir. Bütün təhsil pillələri və sahələri üzrə təhsilalanlar qeyd olunan istiqamətlərdə problemin həllinə yönəlmiş innovativ layihələrini nümayiş etdirəcəklər. "İnnovativ layihələr sərgisi"ndə qeyd olunan istiqamətlərin önə çəkilməsində əsas məqsəd təhsilalanları daha çox mövcud qlobal problemlərin həlli, həmçinin sosial inkişafa verə biləcək tövhələrə kökləməkdir.

# 3. Müraciət üsulu

3.1. Müraciətlər, SAF-ın rəsmi internet saytı üzərindən qəbul ediləcək (https://saf.steam.edu.az/).

# 4. Seçim mərhələsi

4.1. Festivalda nümayiş üçün layihələrin seçimi müəyyənləşdirilmiş münsiflər tərəfindən aparılacaqdır. Müəyyən olunmuş müddət ərzində qeydiyyatdan keçmiş və layihələrini təqdim etmiş komandalar seçim mərhələsində iştirak edəcəkdir. Layihələrin seçimi festivaldan əvvəl həyata keçirilcəkdir.

4.2. Seçim məqsədilə aparılan qiymətləndirmədə - layihə mövzusunun müasir dövrdə aktuallığı, innovativliyi, funksionallağı, unikallığı və təqdim etmə kimi meyarlar nəzərə alınacaqdır (**Cədvəl 1**).

| Kriteriyalar | Bal |
|---|---|
| Aktuallıq - layihə məzmununun müasir dövrdə aktuallığı | **10** |
| İnnovativlik – layihə ideyasının reallaşdırılmasında innovativ yanaşmaların tətbiqi | **20** |
| Funksionallıq – hazırlanmış maket, prototip və ya digər layihə məhsulunun funksionallığı (işlək olması) | **30** |
| Unikallıq – Yeni (təkrarlanmayan) layihə ideyası və məhsulu | **30** |
| Təqdimat – təyin edilmiş vaxt müddətində fikirləri və ya məlumatları aydın, sistemli şəkildə çatdırılması, eyni zamanda səs tonu, bədən dili, göz təması və s-dən düzgün istifadə | **10** |
| **Ümumi** | **100** |

**Cədvəl 1**

4.3. Ən yaxşı nəticə göstərmiş müəyyən sayda komanda sərgidə iştirak hüququ qazanacaqdır.

# 5. Final mərhələsi

5.1. Sərgi zamanı iştirakçılar layihə təqdimatlarını etmək məqsədilə şəxsi notbuk və ya planşetlərdən istifadə edəcəkdir.

5.2. Hər bir komandanın təbliğat və məlumat xarakterli poster hazırlaması zəruridir. Poster ölçüsünün 100 sm x 50 sm olması məqsədəuyğundur.